## 2008-ci ilin xronikası

**Fev**
**5**
2008

Fevralın 3-dən 5-dək Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində «Problemlərlə mübarizəyə qalxaq» mövzusunda Saxtakarlıq və Piratçılığa qarşı Mübarizə üzrə 4-cü Ümumdünya Forumu keçirilmişdir. Ümumdünya Gömrük Təşkilatı və Dubay Limanlar Gömrük İdarəsinin təşkilatçılığı, həmçinin İnterpol, Ümumdünya  Əqli Mülkiyyət Təşkilatı, Beynəlxalq Ticarət Palatası, Saxtakarlıq və Piratçılığa qarşı Mübarizə üzrə Biznes Birliyi, Beynəlxalq Ticarət Nişanları Assosiasiyası və Beynəlxalq Təhlükəsizlik İdarəetməsi Assosiasiyasının dəstəyi ilə keçirilən tədbirdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev iştirak etmişdir.

**Fev**
**25**
2009

Fevralın 25-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Qətər dövlətinin ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri şeyx Mübarək bin Fəhd Casim Al Tanini qəbul etmişdir.

**Fev**
**29**
2008

Fevralın 28-29 tarixlərində İrlandiyanın paytaxtı Dublin şəhərində Ümumdünya Gömrük Təşkilatı Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin Konfransı keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi altında nümayəndə heyəti  iştirak etmişdir.

**Fev**
**25**
2008




Fevralın 25-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Qətər dövlətinin ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri şeyx Mübarək bin Fəhd Casim Al Tanini qəbul etmişdir.

**Mar**
**18**
2008

Martın 18-də Ukraynanın paytaxtı Kiyev şəhərində  Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Gömrük Xidməti Rəhbərlərinin İclası keçirilmişdir. Tədbirdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayevin rəhbərliyi altında nümayəndə heyəti iştirak etmişdir.

**Mar**
**28**
2008

Martın 27-28 tarixlərində Belçika Krallığının Brüssel şəhərində "XXI əsrdə gömrük" mövzusuna həsr edilmiş Qlobal Forum keçirilmişdir.
ÜGT-nin təşkilatçılığı ilə keçirilən forumda Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Rza Həsənəliyevin rəhbərliyi altında nümayəndə heyəti iştirak etmişdir.

**Apr**
**17**
2008

Aprelin 17-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının birgə hazırladığı, dünya ölkələri üzrə biznes mühitinin qiymətləndirilməsini aparan "Doing business" hesabatının müəllifi Simeon Dyankovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**Apr**
**23**
2008

Aprelin 23-də  Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Böyük Britaniya və Şimali İrlandiya Krallığının  ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Dr. Karolin Braunu  qəbul etmişdir.

Apr
**23**
2008

Azərbaycan ilə Yaponiya arasında əməkdaşlıq bütün sferalarda yüksələn xətlə nkişaf edir. İyunun 2-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Masamitsu Okini qəbul etmişdir.



İyun
**4**
2009

İyunun 4-dən 6-dək Rusiya Federasiyasının Nijni Novqorod şəhərində Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 47-ci iclası keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayevin rəhbərliyi altında nümayəndə heyəti iştirak etmişdir.

İyun
**12**
2008

İyunun 12-də Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Rza Həsənəliyev Çin Xalq Respublikası Gömrük Baş Adminstrasiyasının Beynəlxalq Əməkdaşlıq Departamentinin Baş direktor müavini Vanq Donqhonqun başçılıq etdiyi numayəndə heyətini qəbul etmişdir.



İyun
**26**
2008

İyunun 26-dan 28-dək Belçika Krallığının Brüssel şəhərində, Ümumdünya Gömrük Təşkilatının Baş qərargahında Gömrük Əməkdaşlıq Şurasının 111/112-ci sessiyası keçirilmişdir. Tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir.İyunun 27-də isə "Azərbaycan Respublikası Hökuməti və Slovakiya Respublikası Hökuməti arasında gömrük məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş" imzalanmışdır.Azərbaycanla Rusiya arasında bütün sahələrdə əlaqələr yüksələn xətlə inkişafdadır. İki ölkənin uğurlu əməkdaşlıq trayektoriyası gömrük sferasını da hərtərəfli əhatə edir.

İyul
**3**
2008

İyulun 3-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevlə Rusiya Federasiyası Federal Gömrük Xidmətinin rəhbəri Andrey Belyaninov arasında keçirilən görüşdə də Azərbaycan Rusiya gömrük əməkdaşlığının inkişaf dinamikası ətraflı müzakirə edilmişdir.

İyul
**4**
2008

Azərbaycan ilə Türkiyə gömrük xidmətləri arasında sıx əlaqələr mövcuddur avqustun 8-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hulusi Kılıcı qəbul etmişdir.

| | |
|---|---|
| **Okt** **10** 2008 | Oktyabrın 9-10-da Avstriya Respublikasının Vyana şəhərində Avstriya Gomruk İdarəsi və Avropa Komissiyası tərəfindən birgə təşkil edilmiş Gomruk 2013 Proqramı cərcivəsində Avropa İttifaqının Şərq Sərhədlərində Gomruk Əməkdaşlığına dair Yuksək Səviyyəli Forum kecirilmişdir. Forumda Dovlət Gomruk Komitəsi sədrinin muavini, gomruk xidməti general-leytenantı Əsgər Abdullayevin rəhbərliyi altında numayəndə heyəti iştirak etmişdir. |
| **Okt** **21** 2008 | MDB iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının növbəti iclası Qəbələ şəhərində keçiriləcək Noyabrın 19-21 tarixlərində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 48-ci iclası və sözügedən Şuranın yaranmasının 15 illiyinə həsr edilmiş yubiley tədbirləri keçirilmişdir. Tədbirdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Rza Həsənəliyevin rəhbərliyi altında nümayəndə heyəti iştirak etmişdir. |
| **Noy** **5** 2008 | Ümumdünya Gömrük Forumu keçirilmişdir Dekabrın 4-5 tarixlərində Belçika Krallığının Brüssel şəhərində, Ümumdünya Gömrük Təşkilatının baş qərargahında "Təhlükəsiz ticarət yollarının idarə edilməsi və asanlaşdırmanın gələcəyi" mövzusunda Ümumdünya Gömrük Forumu-2008 keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi altında nümayəndə heyəti də iştirak etmişdir. |